Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

# NEWSLETTER

AZƏRBAYCANDA YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ
NO. 1/2023



## LAYİHƏNİN XÜLASƏSİ

Layihə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və digər aidiyyəti qurumların institusional potensialının inkişaf etdirilməsi, yol hərəkəti təhlükəsizliyi ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi, eləcə də əhalinin yol hərəkəti təhlükəsizliyi ilə bağlı məlumatlılığının artırılması yolu ilə Azərbaycanda yol hərəkəti təhlükəsizliyini gücləndirəcək.

## LAYİHƏYƏ KİM CAVABDEHDİR

Layihənin əsas benefisiarı Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir.

**Azərbaycandan olan digər maraqlı tərəflər:**

- Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi
- Elm və Təhsil Nazirliyi
- Səhiyyə Nazirliyi
- Ədliyyə Nazirliyi
- İqtisadiyyat Nazirliyi
- Fövqəladə Hallar Nazirliyi
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi
- Dövlət Gömrük Komitəsi
- Bakı Şəhər İcra Hakimiyyəti yanında Bakı Nəqliyyat Agentliyi
- Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi
- "Azərbaycan Dəmir Yolları" QSC
- Azərbaycan Avtomobil Federasiyası
- Azərbaycan Milli Avtomobil Klubu

**Üzv Dövlət Tərəfdaşları (Polşa):**

- Avropa İttifaqının Nəqliyyat Layihələri Mərkəzi, Layihə Meneceri
- İnfrastruktur Nazirliyi
- İnkişaf Fondları və Regional Siyasət Nazirliyi

## ƏLAQƏ MƏLUMATI

Avropa İttifaqı Nəqliyyat Layihələri Mərkəzi
Plac Europejski 2, 00–844 Varşava, Polşa
Telefon: +48 22 262 05 37
E-poçt: cupt@cupt.gov.pl
kgrot@cupt.gov.pl

Rezident Tvinninq Məsləhətçisinin Ofisi
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
E-poçt: ejaszczuk@cupt.gov.pl, twinning-az@cupt.gov.pl
Tel: +994 55 418 49 87
Zərifə Əliyeva küçəsi 77, Bakı, AZ1000
Azərbaycan

**LAYİHƏNİN MÜDDƏTİ:**

OKTYABR 2022-Cİ İL
– OKTYABR 2024-CÜ İL

AZƏRBAYCANDA YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

# BE A GOOD HOST ON THE ROADS!



Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu nəşrin məzmununa görə məsuliyyəti yalnız "Azərbaycanda Yol Hərəkətinin Təhlükəsizliyinin Gücləndirilməsi" Tvinninq Layihəsi daşıyır və Avropa İttifaqının mövqeyini əks etdirmir

- Avtomobil Nəqliyyatı Müfəttişliyi
- Yol hərəkəti Qaydalarına Əməl olunmasına Avtomatik Nəzarət Mərkəzi
- Milli Avtomobil Yolları və Avtomobil Yolları Baş İdarəsi

**Üzv Dövlət Tərəfdaşları (Litva):**

- Litva Nəqliyyat Təhlükəsizliyi İdarəsi – Kiçik Tərəfdaş
- Nəqliyyat və Rabitə Nazirliyi
- Litva Polisi
- Nəqliyyat Səlahiyyətləri Agentliyi

## MƏQSƏDLƏR

Layihənin Ümumi Məqsədi ölkəmizdə ölüm və ya ağır sağlamlıq xəsarətləri və sosial-iqtisadi ziyanla nəticələnən yol-nəqliyyat hadisələrinin azaldılmasına töhfə verməklə, Azərbaycanda yol təhlükəsizliyi sahəsində standartların, idarəetmənin, qurumlar arasında koordinasiyanın yaxşılaşdırılması və müvafiq qurumların hüquqi və institusional imkanlarının və işçi heyətinin bilik və bacarıqlarının artırılmasıdır.

## ƏSAS FƏALİYYƏTLƏR

**Yol hərəkətinin təhlükəsizliyi sisteminin hüquqi və institusional bazasının gücləndirilməsi**

- Yol hərəkətinin təhlükəsizliyi sahəsində qanunvericilik aktlarına dair boşluqlar və tövsiyələr üzrə qiymətləndirmə hesabatının hazırlanması
- Yeni qanunvericilik aktlarına və texniki reqlamentlərə dəyişikliklərin müvafiq layihəsi
- Yol nəqliyyatı təhlükəsizliyi qurumlarının təfərrüatlı xəritələşdirilməsi və funksional təhlili üzrə hesabatın (məqsədləri, missiyaları, funksiyaları, məlumat axınları, Yol Hərəkətinin Təhlükəsizliyinə dair Dövlət Proqramının icrası çərçivəsində boşluqları və həddindən artıq və ya əhəmiyyətsiz vəzifələri müəyyən etmək məqsədi ilə) hazırlanması
- Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Baş Dövlət Yol Polisi İdarəsinin və digər maraqlı tərəflərin müvafiq rol və vəzifələri daxil olmaqla, institusional transformasiyalar üçün potensial ssenarilərin hazırlanması

**Yol hərəkətinin təhlükəsizliyinin idarə olunması üzrə effektiv sistemin qurulması**

- Bütün zəruri prosedurları özündə əks etdirən Yol Hərəkətinin Təhlükəsizliyinin İdarəolunması üzrə Sistem üçün Təlimatlar
- Təklif olunan Yol-Nəqliyyat Hadisələrinə qarşı Yeni Preventiv Mexanizm və Nəqliyyatın intellektual idarəetmə sistemlərinə (TARS) əsaslanan Yol-Nəqliyyat hadisələrinin azaldılmasına yönəlmiş İntellektual Strategiya
- Avropa İttifaqının göstəriciləri sisteminə uyğun olan və onların təsvirləri və metodologiyaları da daxil olmaqla, yol hərəkətinin təhlükəsizliyi üzrə fəaliyyət göstəricilərinin yeni toplusunun hazırlanması
- Hesabat və tövsiyələr toplusundan sonra yol hərəkətinin təhlükəsizliyinə dair praktiki yoxlamaların aparılması
- Yol hərəkəti və yol-nəqliyyat hadisələri üzrə cədvəlli, vahid (xərc tələb etməyən) inteqrasiya olunmuş məlumat bazasının yaradılması və məlumat bazasının arxitekturası, məqsədləri və strukturu üzrə təklifin verilməsi

**Yol hərəkətinin təhlükəsizliyi sahəsində insan resurslarının inkişafı, maarifləndirmə, təbliğat və təşviqat**

- Təlim proqramı və bütün hədəf qrupları üzrə işçilər üçün müfəssəl kurikulumlarla birlikdə administrasiya rəhbəri tərəfindən təsdiq edilmiş təlim paketləri
- Ölkə miqyasında yol hərəkətinin təhlükəsizliyi üzrə məlumatlılığın artırılması və kommunikasiya strategiyası, o cümlədən təbliğat və təşviqat fəaliyyət planının hazırlanması və istifadə olunması
- Yol hərəkətinin iştirakçıları, xüsusilə də həssas qrupa daxil olan iştirakçıları (uşaqlar, qocalar, piyadalar, velosipedçilər, motosikletçilər) arasında yol hərəkətinin təhlükəsizliyi barədə məlumatlılığın artırılması məqsədi ilə yol nəqliyyat hadisələrinin qarşısının alınması və əhalinin maarifləndirilməsi üzrə məlumat kampaniyasının başladılması və qəzaların qarşısının alınması
- Məktəblərdə yol hərəkəti təhlükəsizliyi üzrə maarifləndirmə işinin sistemli və davamlı şəkildə aparılması üçün əsasların müəyyən edilməsi

**Təlim-tədris səfərləri**

- Polşaya və Litvaya təlim səfəri
- Polşanın müvafiq qurumlarında təcrübə proqramı